**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNVİERSİTETİ**

---

*Əlyazması hüququnda*

**RƏNA ŞAMİL QIZI ŞAHBAZOVA**

# AZƏRBAYCANIN ORTA ƏSRLƏR TARİXİ MƏSƏLƏLƏRİ V.V.BARTOLDUN TƏDQİQATLARINDA

İxtisas: 5502.01 – Ümumi tarix

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

## AVTOREFERATI

**BAKI – 2015**

**Dissertasiya işi Bakı Dövlət Universitetinin "Qədim dünya və orta əsrlər tarixi" kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər:**
Əməkdar elm xadimi,
Dövlət Mükafatı Laureatı,
AMEA-nın müxbir üzvü,
professor **Y.M.MAHMUDOV**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru,
professor **A.B.BAXŞƏLİYEV**

Tarix üzrə fəlsəfə doktoru **D.M.ƏZİMLİ**

**Aparıcı müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi tarix" kafedrası

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 24 fevral 2015-ci il tarixli 52 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasında "_19__" __06________ 2015-ci il saat "___"-da keçiriləcəkdir.

**Ünvan:** AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi-23, Bakı Dövlət Universitetinin Tarix fakültəsi

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" ___________ 2015-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə elmlər doktoru, professor** **S.Y. SÜLEYMANOVA**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Problemin aktuallığı.** Azərbaycanın orta əsrlər tarixinin bir çox məsələləri Azərbaycanın dövlətçilik və mədəniyyət tarixinin öyrənilməsi baxımından həm elmi, həm siyasi aktuallıq kəsb edir. İstər Vətən tarixşünaslığında, istərsə də dünya tarixşünaslığında bu problemlərin araşdırılması istiqamətində fundamental tədqiqatlar aparılmışdır. Bu tədqiqatlar Azərbaycanın orta əsrlər tarrixinin siyasi, iqtisadi, sosial, mədəni məsələlərini əhatə edir və Azərbaycan tarixinin tarixşünaslığını zənginləşdirmişdir.

Məlumdur ki, müəyyən bir problemin tarixşünaslığı öyrənilmədən müasir tarixi ideyaların, konsepsiyaların, tədqiqat üsullarının yenilik dərəcəsinin təyin edilməsi, araşdırma işinin yeniliyinin plagiatdan fərqləndirilməsi çox çətindir. Ayrı-ayrı tarixçilərin, elmi məktəblərin və istiqamətlərin fəaliyyəti qiymətləndirilərkən əsas meyar kimi aşağıdakılar nəzərə alınmalıdır: tarixçi sələfləri ilə müqayisədə elmə hansı yenilikləri gətirmişdir; tarixçinin başlıca elmi metodları hansılardır; araşdırıcının tədqiq etdiyi problem müasir tarix elmi üçün aktualdırmı; alimin elmi irsini davam etdirən məktəb mövcuddurmu; onun xələfləri bu yeniliklərdən yararlana bilmişlərmi və yaxud faydalana biləcəklərmi?

Tarix elmində, şərqşünaslıqda xüsusi mövqeyi olan V.V.Bartoldun (1869-1930) tədqiqat əsərlərinin araşdırılması gedişində dissertasiya müəllifi məhz bu prinsipə istinad etmişdir.

Akademik Vasiliy Vladimiroviç Bartold dünya şöhrətli tarixçi-şərqşünas olmuşdur. V.V.Bartoldu yalnız "tarixçi" adlandırmaq mümkün deyildir. O, Şərq xalqlarının təkcə tarixini deyil, dillərini, ədəbiyyatını, fəlsəfəsini, bütövlükdə çoxəsrlik mədəniyyətini dərindən bilirdi, humanitar elm sahəsinin istənilən alimi ilə Şərq məsələləri üzrə mübahisə aparmaq qabiliyyətində idi. Onun əsərləri yalnız mənbəşünaslıq və tarixşünaslıq üçün deyil, komplekslilik baxımından da əhəmiyyətlidir. Ona görə də V.V.Bartoldun Azərbaycanın orta əsrlər tarixi ilə bağlı olan araşdırmaları hal-hazırda da diqqətəlayiqdir və elmi aktuallığını itirməmişdir.

Məlumdur ki, orta əsrlər dövrü Azərbaycan xalqının tarixi üçün mürəkkəb olduğu qədər də maraqlı bir dovrdür. Azərbaycan xalqının Ərəb Xilafətinin tərkibində təkamülü, təşəkkülü, müsəlman dünyasının, müsəlman mədəniyyətinin tərkib hissəsinə çevrilməsi, qədim, müstəqil dövlətçilik ənənələrinin sonrakı inkişafı, iqtisadi və sosial təsisatlarının qəti olaraq təşəkkülü həmin dövrə təsadüf etmiş mühüm hadisələrdəndir.

Siyasi təkamüllə yanaşı, bu yüzilliklər həm də Azərbaycanın sonrakı

iqtisadi inkişaf meyillərinin özülünün qoyulması ilə də əlamətdardır. Bu zəngin, ziddiyyətli tarixin bir çox problemləri, konseptual məsələləri hələ də özünün elmi həllini gözləyir. Vətən tarixi tədqiqatçılarının yeni nəsli yalnız zəngin elmi irs qoyub getmiş alimlərin, o cümlədən V.V.Bartoldun araşdırmaları ilə yaxından tanış olmaqla, fundamental tədqiqat əsərləri yarada bilər.

V.V.Bartoldun Şərq tarixini kompleks araşdırması elə bir üstünlük gücünə malikdir ki, istənilən ölkənin tarixini araşdırarkən onun tədqiqatlarına müraciət etmək zərurəti yaranır. Əgər söhbət konkret Azərbaycan tarixindən gedirsə, bu halda həmin zərurət daha böyükdür. Akademikin Azərbaycanın orta əsrlər tarixinin diqqət ayırmadığı bir sahəsi, demək olar ki, yoxdur. Sasani dövründən Səfəvilərə qədər Azərbaycanın həm siyasi, həm iqtisadi, həm də mədəni inkişaf istiqamətləri V.V.Bartoldun elmi araşdırmalarının obyekti olmuşdur.

İstər ölkənin ərəb işğalları ərəfəsində etnik durumu və hərbi siyasi mənzərəsi, istər xalqın fomalaşma şəraiti və şərtləri, istər inzibati bölgüsü, istərsə də müsəlman dünyasının tərkib hissəsi olaraq mədəni, sosial və iqtisadi inkişaf istiqamətləri, qonşu ölkələrlə əlaqələri, IX-XI əsrlərdə Xilafətdən ayrılma cəhdlərinin nəticələri, səlcuq dövrü tarixi, monqol yürüşlərinin Azərbaycan üçün nəticələri, Qızıl Orda – Elxani münasibətləri, Azərbaycan tarixinin Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövrlərinin siyasi və iqtisadi tarixi V.V.Bartoldun tədqiqatlarında dərindən tədqiq olunmuşdur.

Beləliklə, elmi-tədqiqat mövzusu seçilərkən onun aktuallığının yuxarıda göstərilən bu cəhətlər nəzərə alınmışdır.

**Tədqiqatın xronoloji çərçivəsi** araşdırılan problemin aid olduğu dövrlə müəyyənləşmişdir. V.V.Bartoldun daha çox ortaəsrşünas olduğunu nəzərə alsaq, dissertasiya III-XVII əsrləri əhatə edir.

Tədqiqatın xronoloji çərçivəsinin başlanğıc hüdudu kimi hal-hazırda tarix elmində qərarlaşmış baxışa uyğun gələn tarixi dövr (eramızın III əsri) – Azərbaycanda feodal münasibətlərinin yaranması əsas götürülmüşdür. Qeyd etmək lazımdır ki, V.V.Bartoldun araşdırmalarında problemə bu cür qəti yanaşma yoxdur. O, antik tarixlə orta əsrlər arasında qəti sərhəd qoymurdu. V.V.Bartold VII əsrdən etibarən baş vermiş hadisələri daha konkret şəkildə – siyasi, iqtisadi inkişaf yönümündən, Azərbaycan xalqının "İslam mədəniyyəti" məcmusuna daxil olması baxımından, ətraflı tədqiq etmişdir. Dissertasiyada III-VII əsrlərin tarixi hadisələri içərisində V.V.Bartoldun yalnız əhatəli diqqət yetirdiyi problemlər nəzərdən keçirilmiş, təhlil edilmişdir.

VII-XVII əsrlər Azərbaycan tarixinin çox mühüm, bəzi hallarda müəyyənedici amillərlə zəngin olan dövrüdür. Bu tarixə kompleks müraciət

etmiş şərqşünasların əsərləri içərisində V.V.Bartoldun araşdırmaları xüsusilə seçilir. Azərbaycanın III-XVII əsrlər tarixinin bütün məsələlərinə müəyyən dərəcədə müraciət etmiş V.V.Bartold kimi ikinci bir tarixçini tapmaq çox çətindir. Digər tərəfdən, bu alim VII-XVII əsrlərdə baş vermiş hadisələri həm ayrı-ayrılıqda, həm də yeri gəldikcə, bir-birilə əlaqəli şəkildə araşdırmışdır.

Tədqiqatın xronoloji çərçivəsinin son hüdudu XVII əsrdir. Bu isə V.V.Bartoldun orta əsrlər tarixinin dövrləşməsinə şəxsi münasibəti ilə bağlıdır. O, demək olar ki, bütün tədqiqat əsərlərində XVII əsrin hadisələrini "Yeni dövr" kimi təqdim etmişdir. Yəni, V.V.Bartold sovet tarixçilərindən fərqli olaraq Avropa tarix elmində qərarlaşmış fikirlə (XVII əsrin "kapitalist münasibətləri", "Yeni dövr" olduğu müddəası ilə) razı idi. Bu cür yanaşma Vətən tarixi elmində hökm sürən ənənəvi dövrləşməyə uyğun gəlmir. Lakin buna baxmayaraq, dissertasiyada V.V.Bartoldun tədqiqat əsərlərində mövcud olan yanaşma tərzinə üstünlük verilmişdir.

V.V.Bartoldun Azərbaycanın etnik-siyasi, iqtisadi və mədəni tarixi ilə bağlı olan araşdırmalarının aktuallığı nəzərə alınaraq III-XVII əsrlər tədqiqatın xronoloji çərçivəsi olaraq müəyyənləşdirilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tarixşünaslıq özü mürəkkəb təbiətə malik olduğundan, konkret tarixçinin elmi irsinin öyrənilməsi də kompleksli və çoxplanlı olmalıdır. Akademik V.V.Bartoldun böyük elmi irsi var və onun fundamental xarakter daşıyan tədqiqatlarında Azərbaycanla yanaşı, yuxarıda qeyd etdiyimiz kimi, geniş coğrafi məkanı əhatə edən Şərqin bir çox bölgələrinin tarixinə diqqət ayrılmışdır. Dissertasiya işinin başlıca məqsədi – orta əsrlər Azərbaycan tarixinin ən aktual məsələlərinin akademik V.V.Bartold tərəfindən tədqiqinin əsas yekunlarını və elmi əhəmiyyətini nəzərdən keçirmək, bu tədqiqatların fonunda müasir Azərbaycan tarix elminin uğurlarını aşkar etmək, həmçinin onların mənbəşünaslıq və faktoloji bazasını öyrənməkdir. Bu məqsəddən çıxış edərək dissertasiyada əsas diqqət aşağıdakı vəzifələrə yönəldilmişdir:

- Tarixçi-şərqşünas V.V.Bartoldun elmi tədqiqat üsullarını (metodlarını) və prinsiplərini aşkara çıxarmaq, bu üsulların və prinsiplərin təsnifatını vermək;
- V.V.Bartoldun elmi irsinin əsaslarını araşdırmaq, bu irsin müasir tarix elmi üçün əhəmiyyətli olan cəhətlərini müəyyənləşdirmək;
- Tarixçi-şərqşünasın istifadə etdiyi arxeoloji, epiqrafik, etnoqrafik, numizmatik materialların, yazılı qaynaqların elmi araşdırmaya cəlb olunması dərəcəsini müəyyən etmək;

- V.V.Bartoldun tədqiqat əsərlərində istifadə olunmuş ilkin yazılı qaynaqların müqayisəli təhlilini aparmaq, onların mötəbərlilik dərəcəsini təyin etmək, müasir dövrə gəlib çatmamış, lakin bu alimin istifadə etdiyi bəzi mənbələrin əhəmiyyətini daha qabarıq göstərmək;
- V.V.Bartoldun Azərbaycan tarixinin orta əsrlər dövrünün bir çox məsələləri, o cümlədən konseptual problemləri ilə bağlı olan tarixçi baxışını araşdırmaq;
- müasir elmi araşdırmaların fonunda V.V.Bartoldun tədqiqat əsərlərinin aktuallıq dərəcəsini və əhəmiyyətini müəyyənləşdirmək;
- V.V.Bartoldun əsərlərinin sonrakı elmi araşdırmalara təsirini, bu təsirin nəticələrini izləmək;
- V.V.Bartoldun elmi irsinin öyrənilməsinin əhəmiyyətini göstərmək.

Dissertasiyada əsas diqqət Azərbaycanın Ərəb Xilafəti tərkibində siyasi və iqtisadi təkamülünə, Azərbaycan xalqının təşəkkülü prosesinə, IX-X əsrlərdə Ərəb Xilafətindən yarımasılı və azad olan Azərbaycan dövlətlərinin yaranması və inkişafı məsələlərinə, "İslam mədəniyyəti"nin ölkəmizin elmi və mədəni həyatına təsirinə, "səlcuq və monqol amili"nin xalqımızın tarixində yerinə, roluna, digər ictimai-siyasi səciyyəli məsələlərə yönəldilmişdir. V.V.Bartoldun Azərbaycanın XV-XVII əsrlərdə siyasi və iqtisadi inkişaf məsələləri, Ağqoyunlu və Səfəvi dövlətlərinin ölkənin siyasi inkişafında və dövlətçilik tarixində yeri, bu dövlətlərin beynəlxalq əlaqələri ilə bağlı olan araşdırmaları ayrıca fəsildə təhlil edilmişdir.

Dissertasiya müəllifinin qarşısında duran ən mühüm vəzifələrdən biri də Azərbaycan tarixinin adı çəkilən bir sıra problemlərinə V.V.Bartoldun baxışını araşdırmaqla yanaşı, onun xələflərinin tədqiqat əsərlərində bu məsələlərin həlli yollarının təhlilini vermək olmuşdur. Bu cür yanaşma labüd və zəruridir. Çünki bu təhlil təqdim edilmədiyi halda disseratiya yalnız V.V.Bartoldun tərif edilməsindən, onun irsinin qısa icmalından ibarət olardı. Digər tərəfdən, biz bu və ya digər məsələ ilə bağlı olaraq müasir tarix elminin uğurlarını qeyd etməklə, əslində, V.V.Bartoldun həmin problemləri elmi dövriyyəyə cəlb etməkdə böyük xidmətlərini üzə çıxarmağa vasitəli surətdə yardım edirik.

**Dissertasiyanın nəzəri-metodoloji bazası.** Yuxarıda göstərilən vəzifələrin yerinə yetirilməsi naminə bir sıra elmi-nəzəri metodlardan istifadə edilmişdir. Araşdırma gedişində konseptuallıq, obyektivlik, tarixilik prinsiplərinə əməl edilmiş, maddi və yazılı qaynaqlara tədqiqat əsərlərinə tənqidi yanaşma, onların müqayisəli metodlarından istifadə olunmuşdur.

Tədqiqat gedişində istifadə olunmuş əsas üsul elmi araşdırmalarda geniş yayılmış tənqidi metoddur. Bu metod isə tarixşünaslıq səciyyəsi daşıyan

tədqiqat əsərlərinin əksəriyyətində, o cümlədən təqdim olunan dissertasiya işində labüd və zəruridir. V.V.Bartoldun Vətənimizin tarixi ilə bağlı olan əsərlərinin təhlilində tənqidi metodun, təhlil və ümumiləşdirmə üsullarının tətbiq edilməsi Azərbaycan xalqının orta əsrlər tarixinin tarix elmində işıqlandırılması səviyyəsini müəyyənləşdirməyə imkan verir.

V.V.Bartoldun tədqiqat əsərlərindəki materiallar nə qədər əhəmiyyətlidirsə, onların tənqidi təhlili də bir o qədər vacibdir. Ona görə də dissertasiyada V.V.Bartoldun bu və ya digər məsələ ilə bağlı olan mülahizələrindəki, konsepsiyalarındakı qüsurları da yeri gəldikcə qeyd edilmişdir. Bu qüsurlar ilk növbədə onun Azərbaycanın etnik tarixi, Ərəb Xilafəti və monqol ağalığı dövründə ölkədə yayılmış bəzi iqtisadi təsisatlarla, ictimai hərəkatlarla bağlı olan baxışlarını, mülahizələrini "sübut etmək" üçün gətirdiyi faktların bəzi hallarda iqtibassız qalması ilə əlaqədardır. Qeyd etmək lazımdır ki, bu və ya digər tarixi hadisə ilə bağlı olaraq tarixi şəxsiyyətlərə və coğrafi amillərə həddindən çox önəm verməsi V.V.Bartoldun tədqiqatçı baxışının ən qabarıq nəzərə çarpan xüsusiyyətlərindəndir.

Dissertasiyada digər görkəmli tarixçilərin, şərqşünaslarının araşdırılan problemlərə yanaşma prinsipləri də nəzərə alınmışdır.

**Problemin mənbə bazası və tədqiqi səviyyəsi**. Problemin araşdırılması gedişində başlıca mənbə qismində V.V.Bartoldun tədqiqat əsərlərindən istifadə edilmişdir. Bu tədqiqat əsərlərini şərti olaraq bir neçə qismə ayırmaq olar:

1) Bilavasitə Azərbaycan tarixinə həsr olunmuş əsərlər. Həmin qrupa aşağıdakı əsərləri daxil etmək mümkündür: "Bir daha Qorqud haqqında" (*"Еще известие о Каркуде"*), "Dərbənd tarixinə dair", "Qafqaz, Türküstan, Volqa", "Azərbaycan tarixinin qısa icmalı", "Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri", "Şair Nizaminin məqbərəsi", "Dərbənd divarları haqqında yeni məlumatlar", "Şirvan","Şirvanşah".

2) V.V.Bartoldun ikinci qrupa aid edilmiş əsərləri müsəlman xalqlarının tarixini əks etdirir. Məlumdur ki, orta əsrlərdə Azərbaycanın "Müsəlman Şərqi" adlanan böyük bir məkanın ayrılmaz tərkib hissəsi olmuşdur və Ön Asiyanın tarixinin bir çox məsələləri (xüsusilə Səlcuq, monqol-tatar və Səfəvi dövrü) araşdırılarkən, Azərbaycanın da bu sistemdə mövqeyi və rolu nəzərə çarpır. V.V.Bartoldun Qafqaz, Türküstan, İran və Əfqanıstan tarixinə həsr olunmuş tədqiqat əsərlərində Azərbaycan haqqında xeyli maraqlı qeydə təsadüf edilir.[1]

---

[1] Бартольд В.В. История культурной жизни Туркестана // Сочинения. Т. II (I), Москва: Наука, 1963, с.169-433; Yenə onun. История Туркестана // Сочинения. Т.II (I), с.109-168;

3) Alimin üçüncü qrupa daxil edilmiş əsərləri qrupuna onun ayrı-ayrı ölkələrə həsr etdiyi, vasitəli surətdə Azərbaycanla bağlı olan qeydlərin olduğu əsərlər daxildir. Bu əsərlər də təqdim olunan tədqiqat işi üçün aktuallıq kəsb edir. Bir cəhəti də nəzərə almaq vacibdir ki, V.V.Bartoldun bəzi əsərlərində Cənubi Azərbaycanın etnik tarixi, şəhər həyatı və s. kimi məsələlər «İran» bölmələrində təqdim edilir.[1]

4) V.V.Bartoldun dördüncü qrupa aid edilən əsərləri onun elmi ezamiyyətlərinin nəticələrini əks etdirən hesabatlardır. Bu hesabatlar bilavasitə Azərbaycan tarixi ilə bağlı deyildir, əsasən Mərkəzi Asiya ölkələrinin, xalqlarının tarixinin və mədəniyyətinin tədqiqi məqsədilə tərtib edilmişdir. Lakin həmin hesabatlar türk və müsəlman mədəniyyətinin tərkib hissəsi olan Azərbaycanın tarixi üçün də əhəmiyyətlidir.[2]

5) Alimin beşinci qrupa aid edilmiş tədqiqat əsərləri onun ayrı-ayrı tədqiqatçıların əsərlərinə yazdığı tənqidi rəyləridir. Həmin rəylər təqdim olunan dissertasiya işi üçün vacib mənbə rolunu oynamışdır. Bu rəylər əsasən məşhur şərqşünas-tədqiqatçıların (P.M.Sayksın, N.A.Aristovun, P.Svetkovun və b.) əsərlərinə yazılmışdır.[3]

Dissertasiyada problemin daha çox orta əsrlərlə bağlı olduğunu nəzərə alaraq, həmin dövrün müəlliflərinin əsərlərindəki (habelə, V.V.Bartoldun müraciət etdiyi mənbələrdəki) materiallardan da istifadə edilmişdir. İstifadə olunmuş ərəbdilli və farsdilli qaynaqlarla yanaşı, Avropa müəlliflərinin əsərlərindən də istifadə edilmişdir. Musa Kalankatlının “Albaniya tarixi”, əl-Bəsrinin, İbn Xordadbehin, İbn əl-Fəqihin, Qudama ibn Cəfərin, İbn Rustanın, əl-Yəqubinin, əl-İstəxrinin, əl-Müqəddəsinin, İbn Havqəlin, Yaqut əl-Həməvinin Azərbaycan türkcəsinə və ruscaya tərcümə olunmuş əsərləri həmin mənbələr sırasındadır.[4]

---

Бартольд В.В. Очерк истории туркменского народа // Сочинения, т.II (I), с.547-626; Yenə onun. Работы по истории Средней Азии // Сочинения. Т.II (I), с.23-108.

[1] Бартольд В.В. Восточно-Иранский вопрос // Сочинения. Т.VII. Москва, 1971, с.417-437; Yenə onun. К истории крестьянских движений в Персии // Сочинения. Т.VII, с.438-449

[2] Бартольд В.В. Отчет о поездке в Среднюю Азию с научной целью. 1893-1894 гг. // Сочинения. Т.4. Москва: Наука, 1967

[3] Бартольд В.В. Рецензия на книгу: Азиатская Россия. Т.1-3 (1914) // Сочинения. Т. II (I), с. 643-650; Yenə onun. Рецензия на книгу: Н.А.Аристов. Заметки об этническом составе тюркских племен и народностей и сведения об их численности. // Сочинения. Т.V. Москва, 1965; Yenə onun. Рецензия на книгу: В.И.Масальский. Туркестанский край (1913) // Сочинения. Т. II (I), с.635-642; Yenə onun. Рецензия на книгу: П.Цветков. Исламизм. Асхабад, 1912-1913 // Сочинения. Т.VI. Москва, 1966; Yenə onun. Рецензия на книгу: P.M.Sykes. A History of Persia. Vol.2. London, 1915 // Сочинения. Т.VII, с.409-412

[4] Kalankatlı Moisey. Albaniya tarixi. Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik

Azərbaycanın XI-XIII əsrlər tarixini araşdırmaq üçün zəruri olan yazılı mənbələrin içərisində məhur orta əsr müsəlman müəllifləri Nizamülmülkün, Həmdullah Qəzvininin, Nizaməddin Şaminin, Fəzlullah Rəşidəddinin, Şərəfəddin Əli Yəzdinin, Plano Karpininin və Marko Polonun əsərləri diqqəti cəlb edir. XVI-XVII əsrlərin Azərbaycan tarixi üzrə ilə Şərəfxan Bidlisinin, Adam Olearinin, Yan Streysin əsərlərini qeyd etmək vacıbdir.[1]

V.V.Bartoldun Azərbaycanla bağlı olan elmi irsi araşdırılarkən tarixçilərin, şərqşünasların, digər mütəxəssislərin əsərlərinə də müraciət olunmuşdur. Tarix elminin tarixini araşdıran şəxs bu və ya digər tarixçinin və ya məktəbin əsərlərinin təhlili ilə kifayətlənə bilməz. O, araşdırdığı əsərlərin elmi əhəmiyyətini üzə çıxararkən müəyyən bir tarixçinin elmi xidmətlərini dəyərləndirərkən həmin əsərləri digər tarixçilərin tədqiqat əsərləri ilə müqayisə etməlidir.

Buna görə də dissertasiya işində Əbdülkərim Əlizadənin, Ziya Bünyadovun, Məhəmməd Şəriflinin, Nailə Vəlixanlının, Rauf Hüseynovun və Vaqif Piriyevin, Zülfəli İbrahimovun, Ədhəm Şahmalıyevin, Yaqub Mahmudovun, Oqtay Əfəndiyevin, Şahin Fərzəliyevin və Bəxtiyar Əhmədovun, Mikayıl Heydərovun, Seyidağa Onullahinin, Sara Aşurbəylinin və digər Azərbaycan tarixçilərinin əsərlərindən geniş istifadə edilmişdir.

Azərbaycan tarixinin Xilafət dövrü tarixini Z.M.Bünyadov, M.X.Şərifli, S.B.Aşurbəyli, Y.M.Mahmudov, N.M.Vəlixanlı, N.C.Axundova, N.A.Əliyeva, Y.H.Gözəlova kompleks şəkildə tədqiq etmişlər. Z.M.Bünyadov XX əsrin 50-ci illərindən etibarən Azərbaycanın Ərəb Xilafəti tərkibində siyasi vəziyyəti, Ərəb Xilafətində torpaq və pul islahatları, həmin islahatların Azərbaycanda özünəməxsusluqları, ölkənin ticarət həyatı, Babək hərəkatı, Babəkin Bizansla əlaqələri, IX-X əsrlərdə Azərbaycanda yaranmış müstəqil və yarımmüstəqil dövlətlərin tarixi kimi vacib məsələləri araşdırmış və Vətən tarix elmi üçün zəngin irs qoyub getmişdir. Z.M.Bünyadov tariximizin Xilafət dövrünün,

---

Z.M.Bünyadovundur. Bakı: Elm, 1993, s.3-235; Əbu Osman Əmr bin Bəhr əl-Cahiz əl-Bəsri. Kitab ət-təbassur bi-t-ticəra. Ərəb dilindən tərcümə, qeyd və şərhlər Y.H.Gözəlovanındır. Bakı: Altay, 1999, 32 s.; Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünasları və səyyahları Azərbaycan haqqında. Bakı: Elm, 1974, 223 s.; Ибн Хордадбех. Книга путей и стран. Перевод с арабского, комментарии, исследование, указатели и карты Н.Велихановой. Баку: Элм, 1996, 428 с.; Йакут ал-Хамави. Муджам ал-булдан (Сведения об Азербайджане). Баку: Элм, 1983, 66 с.

[1] Nizamülmülk Əbu Əli Həsən ibn Əli Xacə. Siyasətnamə. Bakı: Elm, 1989, 212 s.; Nizaməddin Şami. Zəfərnamə. Türk dilindən tərcümə edəni akademik Z.M.Bünyadov. Bakı: Elm, 1992, 40 s.; Rəşidəddin Fəzlullah. Oğuznamə. Fars dilindən tərcümə, ön söz və şərhlər R.M.Şükürovanındır. Bakı: Azərnəşr, 1992; Şərəfəddin Əli Yəzdi. Zəfərnamə. Fars dilindən tərcümə, ön söz və izahlar V.Z.Piriyevindir. Bakı: ADN, 1998, 80 s. və d.

Azərbaycanın orta əsrlər tarixinin sonrakı mərhələlərinin öyrənilməsi üçün əhəmiyyətli olan bir sıra yazılı mənbələrin tərcüməçisi kimi də məşhurdur.[1]

N.M.Vəlixanlı ərəbdilli mənbələri əsasında Azərbaycan xalqı tarixinin bir sıra vacib məsələlərini tədqiq etmişdir. Qeyd edək ki, V.V.Bartoldun yaşadığı dövrdə ərəbdilli mənbələrin ruscaya və Azərbaycan türkcəsinə tərcümə mətnləri yox dərəcəsində olmuşdur (P.K.Juzenin və N.Karaulovun tərcümələri istisna olunmaqla). Məhz bu amil V.V.Bartoldun tədqiqat əsərlərinin və mənbə bazası baxımından müstəsna əhəmiyyət kəsb etdiyini təsdiq edir. N.M.Vəlixanlının ərəb dilindən tərcümə etdiyi qaynaqlar və tədqiqat əsərləri bu nöqteyi-nəzərdən çox dəyərlidir.[2]

V.V.Bartolddan sonra IX-XI əsrlərin Azərbaycan dövlətlərinin tarixinə xüsusi diqqət yetirmiş (daha doğrusu, bu dövrü konkret tədqiqat obyekti seçmiş) tarixçi M.X.Şəriflidir. O, ərəbdilli mənbələrə istinadlanaraq əsasında Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər, Rəvvadi dövlətlərinin tarixini, bu dövrün beynəlxalq siyasi əlaqələrini, iqtisadi həyatını, Azərbaycan şəhərlərinin inkişaf mühitini, bu şəhərlərin beynəlxalq ticarətdə iştirakı səviyyəsini və digər məsələləri araşdırmışdır. M.X.Şəriflinin əsərlərində Azərbaycan xalqının Səlcuq dövrü ilə bağlı olan tarixi müəyyən dərəcədə tədqiq edilmişdir.[3]

Türklərin (xüsusilə Səlcuq türklərinin) tarixi V.V.Bartoldun daha çox diqqət yetirdiyi problem olmuşdur. Səlcuq imperiyasının tərkibində Azərbaycanın tarixi onun nəzərdən keçirdiyi aktual məsələlərdən biri idi. Qeyd edək ki, V.V.Bartolddan sonra Azərbaycan tarixi elmində Səlcuq dövrü uzun müddət ərzində xüsusi araşdırma mövzusu olmamışdır. Yalnız XX əsrin 60-cı illərindən etibarən bu sahədə irəliləyiş baş vermişdir. Azərbaycan tarixçisi R.Ə.Hüseynov Azərbaycanın Səlcuq dövrünü Bizans yazılı mənbələri əsasında tədqiq etmiş, bu sahədəki qüsurları müəyyən qədər aradan qaldırmışdır.[4] Bu sırada Z.M.Bünyadovun "Azərbaycan Atabəyləri dövləti" adlı monoqrafiyasını

---

[1] Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti. Bakı: Elm, 1985, 268 s.; Yenə onun. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Elm, 1989, 336 s.; Буниятов З.М. Государство атабеков Азербайджана Баку, 1978; Nizaməddin Şami. Zəfərnamə. Bakı: Elm, 1992, 40 s.; Йакут ал-Хамави. Муджам ал-булдан. Баку: Элм, 1983, 66 с.; Хамдаллах Казвини. Нузхат ал-кулуб. Баку: 1983

[2] Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünasları və səyyahları Azərbaycan haqqında Bakı: Elm, 1974, 223 s.

[3] Şərifli M.X. IX əsrin ikinci yarısı – XI əsrdə Azərbaycan feodal dövlətləri. Bakı: Elm, 1978, 344 s.

[4] Гусейнзаде Р.А. Кавказ и сельджуки. Баку: Кавказ, 2010, 272 с.; Yenə onun. Из истории денежного обращения в Передней Азии XI-XII вв. // НЭ. Т.9. 1971; Yenə onun. Иракские Сельджукиды, Ильденизиды и Закавказье // Палестинский сборник. Вып. 21. Москва: 1970; Yenə onun. Сирийские источники XII-XIII вв. об Азербайджане. Баку: 1960, 180 с.

da qeyd etmək olar. Əsərdə R.Ə.Hüseynovdan fərqli olaraq daha çox ərəb və fars dilində olan mənbələrin materialları əsasında İraq səlcuq sultanlığının faktiki, daha sonra rəsmi sultanları olmuş Eldənizlərin tarixi araşdırılır.

Azərbaycanda monqol ağalığı dövrü də Vətən tarixi elmində az öyrənilmişdir. Azərbaycan tarixi elmində yalnız XX əsrin 50-ci illərində Ə.Ə.Əlizadənin fundamental monoqrafiyası və məqalələri V.V.Bartoldun elmi əsərlərindən sonra diqqəti cəlb edən araşdırmalardir .[1] Ə.Ə.Əlizadənin əsəri bu dövrün təqribən bütün başlıca mərhələlərini və məsələlərini (Eldənizlər dövlətinin süqutu, Xarəzmşahların işğalları, Çobanilərin və Cəlairilərin hakmiyyət dövrü, Şirvan hökmdarlarının müstəqilllik uğrunda mübarizəsi və s.) əks etdirir. XIII-XIV əsrlərdə Azərbaycanın ictimai, siyasi, iqtisadi, mədəni tarixi məsələləri V.Z.Piriyevin əsərlərində öz əksini tapmışdır. V.Z.Piriyevin Azərbaycanın tarixi-siyasi coğrafiyasına həsr olunmuş əsərləri, XIII-XIV əsrlərə aid olan farsdilli mənbələrin Azərbaycan dilinə tərcümələri, tərcümələrə əlavə etdiyi şərhlər tədqiqatımız üçün çox əhəmiyyətlidir.[2]

Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri dövrü Azərbaycan xalqının dövlətçilik tarixində mühüm yer tutur. Bu dövlətlər uzun müddət ərzində “İranın türk mənşəli dövlətləri” kimi təqdim edilmişdir. Bu cür yanaşma tərzi V.V.Bartoldun əsərlərində də nəzərə çarpır. Azərbaycan xalqının dövlətçilik tarixinin mühüm mərhələlərini təşkil etmiş bu imperiyaların tarixinin araşdırılması Vətən tarixi elmi qarşısında duran aktual vəzifələrdəndir. V.V.Bartolddan sonra bu dövrün ictimai-siyasi və iqtisadi hadisələri rus (sovet) tarixçisi İ.P.Petruşevski tərəfindən tədqiq edilmiş, lakin Azərbaycan tarixinin bu mərhələləri “Ağqoyunlu dövrü” və ya “Səfəvi dövrü” kimi nəzərdən keçirilmiş, həmin dövlətlər “Azərbaycan dövlətləri” kimi təqdim edilməmişdir.

Ağqoyunlu və Səfəvi dövlətlərinin Azərbaycan dövlətləri kimi təqdim edilməsi Vətən tarixçilərinin xidmətidir. Səfəvi dövlətinin (1501-1736) siyasi tarixi, bu dövrdə ölkənin iqtisadi və ictimai həyatı, mədəni inkişaf problemləri, Azərbaycanın Avropa ölkələri ilə diplomatik və ticarət əlaqələri, dövrün beynəlxalq münasibətlərində Azərbaycanın iştirakı məsələləri

---

[1] Ализаде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку: Изд-во АН Азерб. ССР, 1956, 420 с.; Yenə onun. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку: Кавказ, 2012, 460 с.

[2] Piriyev V.Z. Azərbaycan XIII-XIV əsrlərdə Bakı: Nurlan, 2003, 458 s.; Yenə onun. Azərbaycanın XIII-XIV əsrlər tarixinin tarixşünaslığı – Orta əsrlər Şərqi. Bakı: Elm, 2000, s.90-106; Yenə onun. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: Müəllim, 2006, 152 s.; Yenə onun. Azərbaycan Hülakular dövlətinin tənəzzülü dövründə (1310-1360-cı illər). Bakı: Elm, 1978, 162 s.; Şərəfəddin Əli Yəzdi. Zəfərnamə. Fars dilindən tərcümə, ön söz və izahlar V.Z.Piriyevindir. Bakı: ADN, 1998

Ə.M.Şahmalıyev, Y.M.Mahmudov, O.Ə.Əfəndiyev, Ş.F.Fərzəliyev, B.Ə.Əhmədov, X.S.Qasımov, R.Ə.Ağayev, R.Muğanlinski, D.M.Əzimli, N.S.Musalı, Ə.S.Quliyev, T.H.Nəcəfli tərəfindən geniş mənbə materialı əsasında araşdırılmışdır.

Görkəmli tarixçi Y.M.Mahmudov bu problemə kompleks surətdə yanaşmış, Ağqoyunlu və Səfəvi dövlətlərini Azərbaycan dövlətçiliyinin siyasi gerçəklikləri kimi tədqiq etmişdir. O, Azərbaycan dövlətçiliyinin təkamülündə böyük rolu olmuş Ağqoyunlu və Səfəvi dövlətlərinin tarixini iri həcmli Avropa mənbələrinin materialları əsasında, geniş şəkildə araşdırmışdır. Bu əsərlərdə V.V.Bartoldun elmi xidmətləri də xüsusi qeyd edilmişdir.[1] Y.M.Mahmudovun elmi yaradıcılığı Ağqoyunlu və Səfəvi dövlətləri tarixinin tədqiqi ilə məhdudlaşmır. Onun Azərbaycanın IX-XII əsrlər tarixinə həsr olunmuş əsərləri, xüsusilə "Azərbaycan tarixi. Erkən İntibah dövrü" adlı monoqrafiyası Vətənin bu dövr tarixinə yeni baxışı əks etdirir. Belə ki, Y.M.Mahmudov Vətən tarix elmində ilk dəfə olaraq Azərbaycanın IX-XII əsrlər tarixini "İntibah" deyil, "Erkən İntibah" dövrü kimi dəyərləndirmiş, sonrakı mərhələlərin təhlilini vermiş və bu İntibahın yalnız mədəniyyəti deyil, siyasi və iqtisadi həyatı da əhatə etdiyini sübut etmişdir.[2]

Araşdırma obyekti kimi seçdiyimiz problem elmi ədəbiyyatda indiyədək tədqiq edilməmişdir. Doğrudur, yuxarıda qeyd etdiyimiz əsərlərdə, xüsusilə bu əsərlərdəki tarixşünaslıq bölmələrində bütün görkəmli sələflərin (o cümlədən V.V.Bartoldun) xidmətləri dəyərləndirilmiş, onların bu və ya digər məsələ ilə bağlı olan yanaşma prinsipləri nəzərdən keçirilmiş və ya təhlil edilmişdir. Lakin Vətən tarixi elmində V.V.Bartoldun elmi irsinin tədqiqat obyektinə çevrildiyi xüsusi tədqiqat əsəri hələlik yoxdur. Baxmayaraq ki, həm Vətən tarix elmində, həm xarici ölkələrin tarix elmində V.V.Bartoldun elmi irsinə çox müraciət edilmişdir. Lakin həmin əsərlərdə onun elmi irsinin geniş təhlilinə təsadüf olunmur.

A.Y.Yakubovskinin 1947-ci ildə nəşr edilmiş "Şərqin sosial tarixi məsələləri akademik V.V.Bartoldun əsərlərində" məqaləsi və İ.Y.Kraçkovskinin "İslamşünaslıq tarixində V.V.Bartoldun yeri" adlı məqaləsi

---

[1] Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı: Azərbaycan diplomatiyası, 1996; 2006; Yenə onun. Azərbaycan tarixi. Erkən İntibah dövrü. Bakı: Aspoliqraf, 2008, 128 s.; Yenə onun. Azərbaycan: qısa dövlətçilik tarixi. Bakı: Təhsil, 2005, 140 s.; Yenə onun. Azərbaycanlılar (etnik-siyasi tarixə baxış). Bakı: Aspoliqraf, 2008, 64 s.; Yenə onun. Səyyahlar, kəşflər, Azərbaycan. İkinci nəşri. Bakı: Təhsil, 2012, 296 s. və d.

[2] Yenə onun. Azərbaycan tarixi. Erkən İntibah dövrü. Bakı: Aspoliqraf, 2008, 128 s.

istisna təşkil edir.[1] Onu da qeyd edək ki, həmin əsərlər V.V.Bartoldun Azərbaycan tarixi ilə bağlı olan irsinin araşdırılmasına həsr edilməmişdir. Bu əsərlərdə onun Şərqin ictimai tarixi problemlərinə və islamşünaslığa aid olan ümumi əsərlərinin təhlili verilir.

V.V.Bartoldun «Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri» adlı əsərinin Z.M.Bünyadov və E.A.Ağayeva tərəfindən Azərbaycan türkcəsinə tərcüməsini və bu tərcümədəki şərhləri görkəmli alimin irsinə verilən qiymət kimi dəyərləndirmək olar.[2] Bu, Azərbaycan tarixi elmində V.V.Bartoldun elmi irsinə mənbəşünaslıq və tarixşünaslıq nöqteyi-nəzərindən müraciət edilməsi sahəsində ilk cəhddir. Həmin tərcüməyə əlavə olunmuş şərhləri müəyyən mənada V.V.Bartoldun əsərlərinin tarixşünaslığı kimi qəbul etmək olar. Lakin bu tərcümə ayrıca tədqiqat əsəri deyildir. Ona görə də dissertasiya işi Vətən tarixi elmində V.V.Bartoldun Azərbaycan tarixinə həsr olunmuş elmi yaradıcılığını işıqlandıran ilk tədqiqat əsəri sayıla bilər.

**Dissertasiyanın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyini şərtləndirən başlıca cəhətləri aşağıdakılardan ibarətdir:

- Vətən tarix elmində ilk dəfə olaraq V.V.Bartoldun Azərbaycanın orta əsrlər tarixi ilə bağlı olan bütün tədqiqatlarinin (mühazirələrinin, məqalələrinin, əlyazmalarının, elmi ezamiyyət hesabatlarının, ayrı-ayrı əsərlərə verdiyi rəylərin) geniş elmi təhlili verilir;
- V.V.Bartoldun Azərbaycan xalqının orta əsrlər tarixinin aktual və konseptual məsələlərinə, o cümlədən, dövlətçilik tarixinə, iqtisadi inkişaf məsələlərinə, şəhər həyatında ticarətin yeri və roluna, Azərbaycanın müsəlman dünyasında mövqeyinə və roluna, onun Şərq və Avropa ölkələri ilə əlaqələrinə və digər məsələlərə elmi baxışı araşdırılır;
- Dissertasiyada V.V.Bartoldun tarixçi metodikası və problemlərə elmi yanaşma üsulları və prinsipləri təhlil olunur və onların müasir tarixşünaslıq üçün nəzəri-metodoloji əhəmiyyəti göstərilir;
- V.V.Bartoldun tədqiqat əsərlərinin mənbəşünaslıq bazası təqdim olunur;
- Elmi dövriyyəyə daxil edilməyən üçün bu mənbələrin bəzilərinin Azərbaycanın tarix elmi ücün hazırda da yenilik kəsb etdiyi qeyd olunur;
- V.V.Bartoldun əsərləri müasir tədqiqat əsərləri ilə müqayisə edilir,

[1] Якубовский А.Я. Проблема социальной истории Востока в трудах академика В.В.Бартольда // ВЛУ, 1947, № 12, с.62-79; Крачковский И. Ю. В. В. Бартольд в истории исламоведения // Избранные сочинения. Т. V. Москва – Ленинград: 1958

[2] Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri (Azərb. dilinə cev. akademik Z.M.Bünyadov və E.R.Ağayeva). Bakı, Elm, 1999, 160 s.

konkret sahələrdə görkəmli tarixçinin elmi xidmətləri dəyərləndirilir;

- Azərbaycan xalqının siyasi təkamül tarixinin bir çox məsələlərinin (Səlcuq və monqol hakimiyyəti dövrünün) tədqiqi fonunda V.V.Bartoldun əsərlərinin aktuallığını qoruduğu, yeni araşdırmalar üçün əsas olduğu göstərilir;
- Dissertasiyada V.V.Bartoldun hər bir konkret tarixçinin, o cümlədən tədqiqat problematikasının əsas istiqamətlərinin müəyyən olunmasında böyük rol oynadığı qeyd olunur;
- V.V.Bartoldun tədqiqat əsərlərinin araşdırılması nümunəsində tarixşünasliğa dair əsərlərin yazılmasının aktual və zəruri olduğu sübut olunur.

Beləliklə, təqdim olunan dissertasiya işi Azərbaycanın orta əsrlər tarixinin öyrənilməsi sahəsində V.V.Bartoldun rolunu və xidmətlərini müəyyən etmək yolunda ilk cəhddir.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Dissertasiyada mövcud olan geniş tarixşünaslıq və mənbəşünaslıq materialından, yeni elmi mülahizələrdən, ümumiləşdirmə və nəticələrdən Azərbaycan tarixi üzrə fundamental əsərlərin yazılması prosesində istifadə oluna bilər. Dissertasiya işi elmi məktəbləri, cərəyanları, istiqamətləri öyrənənlər, tarixşünaslıq üzrə araşdırma aparanlar üçün də əhəmiyyətlidir.

Dissertasiyadakı bir çox materialların Şərq tarixi üzrə dərsliklərə və dərs vəsaitlərinə də daxil olunması mümkündür. Bu materiallar Azərbaycan tarixi üzrə mühazirə və ixtisas kurslarının, magistratura pilləsi üçün nəzərdə tutulan proqramların və metodik vəsaitlərin tərtibi zamanı da faydalı ola bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyada ayrı-ayrı məsələlər üzrə müxtəlif elmi-nəzəri konfranslarda məruzələr edilmiş, elmi məqalələr dərc olunmuşdur. Dissertasiya Bakı Dövlət Universitetinin "Qədim dünya və orta əsrlər tarixi" kafedrasında yerinə yetirilmiş, müzakirə olunmuş və müdafiəyə təqdim edilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, 10 paraqrafı əhatə edən 3 fəsil, nəticə, istifadə olunmuş mənbə və ədəbiyyatın və ixtisarların siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun aktuallığı və xronoloji çərçivəsi əsaslandırılır, problemin öyrənilmə vəziyyəti göstərilir, mənbə və nəzəri-metodoloji bazasının icmalı verilir. Girişdə, həmçinin, tədqiqatın məqsədi və vəzifələri müəyyən edilir, elmi yeniliyi və praktik əhəmiyyəti göstərilir.

Dissertasiyanın **I fəsli "Azərbaycanın erkən orta əsrlər tarixi V.V.Bartoldun əsərlərində"** adlanır. Fəsil 4 paraqrafdan ibarətdir və müvafiq olaraq III-VII əsrlərdə Azərbaycanın etnik-siyasi tarixi, Ərəb Xilafəti dövründə Azərbaycanın siyasi və iqtisadi vəziyyəti, IX-XI əsrlərin Azərbaycan dövlətlərinin tarixi və "Müsəlman mədəniyyəti" məsələlərinin V.V.Bartoldun tədqiqatlarında araşdırılması vəziyyətini öyrənir.

Dissertasiyanın I fəslində qeyd edilir ki, V.V.Bartold elmi yaradıcılığında erkən orta əsrlərdə etnik-siyasi hadisələrə xüsusi diqqət yetirmişdir. Lakin konkret bir xalqın etnik mənşəyini "ikinci dərəcəli məsələ" hesab etmişdir. Tədqiqatçı üçün daha önəmli məsələ siyasi, iqtisadi amillərin rolu, xalqın təşəkkülü prosesinin siyasi və iqtisadi hadisələrə təsiri dərəcəsi olmuşdur. Alimin etnogenezis məsələsinə baxışını öz sözləri ilə təxminən belə ümumiləşdirmək olar: "... Hər hansı bir ölkənin tarixinin əsas məzmunu onun dünya mədəniyyəti mübadiləsində iştirak dərəcəsi ilə bağlıdır. Bu halda xalqın etnoqrafik mənşəyi ikinci dərəcəli əhəmiyyət kəsb edir".[1]

V.V.Bartoldun Azərbaycan xalqının təşəkkülü ilə bağlı olan elə fikirləri də vardır ki, mənbələrin azlığı ilə deyil, alimin öz elmi baxışı ilə əlaqədardır və qeyri-obyektivliyi ilə fərqlənir. Müasir Vətən tarixi elmində məqbul hesab olunmur. Məsələn, alim "Azərbaycan" anlayışının həm Azərbaycan SSR-ə, həm də "İranın" şimal-qərb əyalətlərinə aid edilməsini bu ərazilərdə yaşayan əhalinin eyni etnik tərkibi ilə əlaqələndirir. Lakin V.V.Bartold iddia edir ki, bu tarixi vəhdət yalnız Səlcuq dövründən sonra bərqərar olmuşdur. V.V.Bartoldun fikrincə, Araz çayı uzun müddət ərzində "Qafqaz Azərbaycanını İran Azərbaycanından kəskin şəkildə ayıran etnoqrafik sərhəd olmuşdur".[2] V.V.Bartold X əsrin ərəb müəllifi əl-Müqəddəsinin məlumatlarına istinadən erkən orta əsrlərdə "İran Azərbaycanında "azəri" dilində danışıldığını və bu dilin "arrani" dilindən tam fərqləndiyini" qeyd etmişdir.[3] V.V.Bartold kimi ciddi bir tədqiqatçının etnogenezis məsələsində daha yaxın tarixi dövrdə

---

[1] Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира // Сочинения. Т.II. Часть I, s.653

[2] Yenə onun. Краткий обзор истории Азербайджана // Сочинения. Т.II. Часть I, s.775

[3] Yenə orada, s.777

yaşamış müəlliflərin əsərlərinə deyil, X əsrin sonlarında yaşamış ərəb müəllifinin məlumatlarına istinad etməsi təəccüb və maraq doğurur. Azərbaycan xalqının təşəkkülünün xronoloji hədləri də XX yüzilliyin tarixçilərini düşündürən məsələlərdən olmuşdur. Etnogenez problemləri ilə məşğul olmuş sovet tarixçilərinin əsərlərinin təqribən hər birində belə bir müddəa hakimdir: Azərbaycan xalqının təşəkkülü XII əsrin hadisəsidir və bu prosesin başlıca şərti Səlcuq yürüşləridir.[1] Əslində bu məsələnin kökündə xalqımızın təşəkkülü dövrünü imkan daxilində müasir zamana "yaxınlaşdırmaq" istəyi deyil, Azərbaycan xalqının soykökünün türklərə bağlılığını "işğal faktı" ilə izah etmək cəhdləri dururdu. Sovet hakimiyyətinin ilk illərində V.V.Bartold kimi bir çox tarixçi bu müddəanı qəbul etməyə məcbur edilmişdi. Səlcuqlara qədər Azərbaycanda türk əhalisinin olduğunu əslində inkar edə bilməyən bu tədqiqatçılar Səlcuq yürüşlərinin, Qafqazda Səlcuq hakimiyyətinin "Azərbaycan xalqının türkləşməsinə gətirib çıxardığını" qeyd etməli olurdular.[2]

Azərbaycanın Xilafətin hakimiyyəti altında olduğu dövr V.V.Bartoldun tədqiqatlarında ən çox yer alan məsələlərdəndir. Bu, ilk növbədə Xilafət dövrünün mürəkkəb olduğu qədər də əhəmiyyətli olması ilə bağlıdır.

Təəssüf ki, V.V.Bartold, digər məsələlərdə olduğu kimi, Xilafət dövrü Azərbaycan tarixi ilə bağlı məsələləri də bir məqalə və ya bir bölmə, yaxud da konkret bir problem üzrə deyil, ümumi şəkildə izləyir. VII-IX əsrlər Azərbaycanın siyasi və inzibati inkişaf tarixi məsələlərinə gəlincə, onlar müəllifin əsasən «Qafqaz və Şərqi Avropa tarixi üzrə əsərlər», «Tarixi coğrafiya üzrə əsərlər» və «İslam üzrə əsərlər» adlı bölmələrində cəmlənmişdir. Hərçənd ki, adı çəkilən problemlərə dolayısıyla digər məqalələrdə də toxunulur. «Qafqaz və Şərqi Avropa tarixi üzrə əsərlər» bölümündə qeyd olunan məsələlər çox qısa icmal şəklində verilmişdir. V.V.Bartoldun «Əsərləri»nin II cilidinin I hissəsində toplanmış bu bölmədə «Xəzəryanı bölgələrin müsəlman dünyası tarixində yeri» adı altında verilən 10 mühazirədən II-III mühazirələr Azərbaycanın VII-IX əsrlərdə siyasi tarixi məsələlərinə toxunur. Yenə həmin cildin I hissəsində «Azərbaycan tarixinin qısa icmalı» və «Dərbəndin tarixinə dair» məqalələrdə Azərbaycan tarixinin Xilafət dövrü də əksini tapmışdır. Ərəb

[1] Azərbaycan tarixi. 3 cilddə. İ.A.Hüseynovun və b. redaktəsi ilə. I cild. Bakı: 1958, 448 s.; Azərbaycan tarixi. Ən qədim dövrdən XX əsrin əvvəllərinə qədər. Akademik İ.H.Əliyevin red. ilə. Bakı: Elm, 1993, 284 s.; Azərbaycan tarixi. Ən qədim dövrdən 1917-ci ilədək. Z.M.Bünyadovun və Y.M.Yusifovun red. ilə. Bakı, 1993; müqayisə et: Azərbaycan tarixi. 7 cilddə. II cild. Bakı: Elm, 1998, 596 s.; III cild. XIII-XV əsrlər. Bakı: Elm, 1999, 534 s.

[2] Бартольд В.В. Краткий обзор истории Азербайджана // Сочинения. Т.II (I), s.775, 778

Xilafətinin Azərbaycandakı hərbi-inzibati tədbir məsələləri ilə bağlı olaraq V.V.Bartoldun ən çox diqqət ayırdığı məsələ Dərbənd istehkamlarıdır. Məhz buna görə də onun Dərbəndlə xüsusilə də onun qala divarları ilə bağlı olan xeyli məqaləsi, mühazirəsi vardır.[1]

V.V.Bartold VII-IX əsrlərdə Azərbaycanın iqtisadi inkişaf məsələlərini də geniş şəkildə tədqiq etmişdir. V.V.Bartoldun Azərbaycan şəhərlərinin Xilafət dövründəki iqtisadi inkişaf tarixi ilə bağlı olan əsərlərində materiallar çox genişdir. Şəhərlərin inşası, abadlıq və quruculuq tarixi, bərpası V.V.Bartold üçün əhəmiyyət kəsb edən və diqqət tələb edən problemlər idi. Azərbaycan şəhərlərinin siyasi, inzibati, dini mərkəz kimi fəaliyyəti onun diqqətindən yayınmamışdır.

IX əsrin 60-cı illərindən etibarən Ərəb Xilafətinin parçalanması prosesi daha da sürətləndi. Azərbaycanda Xürrəmilər və Babək hərəkatının yatırılması burada xəlifənin hakimiyyətini möhkəmləndirmədi. Əksinə, qiyam və üsyanların, hərəkatların yatırılması üçün xəlifənin Azərbaycana göndərdiyi sərkərdələr, canişinlər burada möhkəmləndilər yarımmüstəqil və müstəqil dövlətlər qurmağa başladılar. Şirvanda Məzyədilər, tarixi Azərbaycan torpaqlarının böyük bir hissəsində Sacilər, onları əvəz etmiş Salarilər, Rəvvadilər, Gəncə, Ani və Dvin əmirliklərin birləşdirən Şəddadilər dövlət qurmağa nail oldular. IX-XI əsrlərdə meydana gəlmiş Azərbaycan dövlətlərinin demək olar ki, hamısı siyasi, iqtisadi, mədəni inkişafı baxımından V.V.Bartold tərəfindən də nəzərdən keçirilmişdir. V.V.Bartold Xilafətin siyasi tənəzzülü dövründə yaranmış yarımmüstəqil və müstəqil Azərbaycan dövlətlərinin təqribən hər biri haqqında məlumat vermişdir. Lakin o, həmin prosesin ilkin siyasi şərtləri üzərində dayansa da, iqtisadi və ictimai amillərə diqqət yetirməmişdir. V.V.Bartold IX-XI əsrlərin Azərbaycan dövlətləri içərisində daha çox Sacilər dövlətinə diqqət yetirmişdir. Görünür, bu, bir tərəfdən, Sacilərin Xilafətə qarşı gərgin mübarizəsi, digər tərəfdən, isə həmin dövrdə öncə məhz Sacilərin Azərbaycan ərazisini tarixi sərhədlərində birləşdirməyə nail olması faktı ilə bağlıdır. Belə ki, V.V.Bartold "Azərbaycan tarixinin qısa icmalı"nda yazmışdır: "Artıq VI əsrdə təsərrüfat və maddi mədəniyyət baxımından vahid olmuş Azərbaycanın, Ermənistanın və Arranın siyasi birliyi Sacilərin və Salarilərin dövründə mümkün oldu".[2]

V.V.Bartold IX-XI əsrlərin Azərbaycan dövlətləri arasında Şirvanşahlar

---

[1] Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri, s.31-49; Бартольд В.В. К истории Дербента // Сочинения. Т.II (I), s.786-787; Yenə onun. Ширваншах // Сочинения. Т. II (I), с.875-880 və s.

[2] Yenə onun. Краткий обзор истории Азербайджана // Сочинения. Т.II (I), s.778

dövlətinə də xüsusi diqqət yetirmişdir. Hesab edirik ki, Azərbaycanın orta əsrlər tarixində Şirvanşahlar dövlətinin təkamülündə Şeybanilər (Məzyədilər) sülaləsinin mühüm yeri və rolu olmuşdur. Şirvanşahların tarixinə dair V.V.Bartoldun bir neçə məqaləsi və ümumi əsərləri də vardır.[1]

İslamın həm Azərbaycan xalqının, həm də digər Şərq xalqlarının tarixində oynadığı böyük rol V.V.Bartoldun nəzərindən kənarda qala bilməzdi. Onun bir qrup məqaləsi bilavasitə İslam tarixinə həsr olunmuşdur. Bu əsərlər həm islam dininin, həm də "islam mədəniyyəti"nin tarixi baxımından böyük elmi əhəmiyyət kəsb edir. V.V.Bartoldun "Əsərləri"nin əsasən VI cildində toplanmış bu məqalələrini problemlər üzrə aşağıdakı şəkildə qruplaşdırmaq olar: 1) İslam dininin yaranma tarixi; 2) İslamda ehkam məsələləri; 3) Müsəlman təriqətləri; 4) Müsəlman dünyasının etnik etnoqrafik tərkibi; 5) Ərəb dilinin və ərəb ədəbiyyatının rolu məsələləri. Təbiidir ki, bu təsnifat şərtidir. V.V.Bartold digər məqalələrində də İslamla bağlı olan əhəmiyyətli qeydlərini təqdim etmişdir.

Digər rus tədqiqatçılarından fərqli olaraq V.V.Bartoldun əsərlərində İslam mədəniyyətinə, müsəlman xalqlarına qərəzli münasibət, "xristian təəssübkeşliyi" baxımından yanaşma tərzi təqribən yoxdur. Üstəlik, V.V.Bartold müsəlman Şərqini qeyri-peşəkar, həvəskar səviyyəsində bilən bir çox Avropa tədqiqatçılarından fərqli olaraq İslamı "uydurma din" deyil, fəlsəfi sistem kimi, sırf elmi nöqteyi-nəzərdən araşdırmışdır.

V.V.Bartold İslamın Dərbənddən şimala yayılmasını Qafqazla deyil, Orta Asiya ilə bağlayırdı. Onun bu mülahizəsinə birmənalı yanaşmaq olmaz. Əvvəla, V.V.Bartold İslamın yayılmasında Cənubi Qafqazın "tranzit" rolu oynamamasının səbəblərini izah etməmişdir. İkincisi, V.V.Bartold İslamın geniş ərazilərə (o cümlədən Qafqazdan şimala, Monqolustana və Çinə) yayılmasında Orta (Mərkəzi) Asiyanın böyük rol oynamasının da səbəbləri üzərindən sükutla keçmişdir. Halbuki bu hadisə bilavasitə türklərin fəallığı ilə sıx bağlı olmuşdur. Üçüncüsü, İslamın Orta (Mərkəzi) Asiya vasitəsilə yayılması xeyli sonrakı dövrə (X-XI əsrlərə) aiddir və bu hal, hadisə erkən İslam dövrü ilə bağlı olmamışdır.

Dissertasiyanın **II fəsli "Azərbaycanın XI-XIV əsrlər tarixi məsələləri V.V.Bartoldun əsərlərində"** adlanır. Bu fəsil də "Səlcuq dövrü", "Eldənizlər. Şirvanşahlar", "Azərbaycanda monqol hakimiyyəti dövrü" və "V.V.Bartold müsəlman Şərqində monqol amilinin yeri haqqında" adlı paraqraflardan ibarətdir.

---

[1]Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира // Сочинения. Т.II (I), с.651-774; Yenə onun. Ширваншах // Сочинения. Т. II (I), с.875-880

X əsrin sonu – XI əsrin əvvəllərində Yaxın və Orta Şərqin tarixinə yeni bir siyasi qüvvə – səlcuqlar daxil olur və tezliklə bir-birinin ardınca mühüm hadisələr – səlcuq yürüşləri və səlcuq imperiyasının təşəkkülü baş verir. Səlcuqlar Azərbaycanın hərbi-siyasi və ictimai-iqtisadi tarixində dərin iz buraxmışdır, çünki xeyli bir müddət ərzində Azərbaycan torpaqları Böyük Səlcuq imperiyasının tərkibində olmuş, Səlcuq siyasi sisteminin təsirinə məruz qalmışdır. Böyük Səlcuq imperiyası sultanlıqlara parçalanandan sonra onun ayrı-ayrı vilayətlərini faktiki idarə edən "atabəylər" təsisatı Azərbaycanda da yaranmış, Azərbaycan atabəyləri – Eldənizlər İraq səlcuq sultanlığının faktiki idarəçiləri, 1191-ci ildən isə həm də rəsmi hakimləri olmuşlar.

Orta əsr müsəlman Şərqinin görkəmli bilicisi olmuş V.V.Bartold Şərqin Səlcuq dövrünə öz əsərlərində geniş yer ayırmışdır. Onun "Türküstanın tarixi" və "Türküstanın mədəni inkişaf tarixi" əsərlərində, "Türkmən xalqının tarixi oçerki" adlı məqalələr toplusunda oğuz türklərinin etnik tarixi, İslamı qəbul etməsi yolları, dövlətçilik ənənələri və siyasi inkişaf məsələləri, Səlcuq yürüşlərinin əsas istiqamətləri özünün geniş əksini tapmışdır.[1] Oğuzların coğrafi məkanının X-XI əsrlərə doğru çox dəyişkən olduğunu qeyd etmiş V.V.Bartold həmin məkanın dəqiq sərhədlərini göstərməsə də, bu sərhədlərin Gürken çayından Çimkəndə qədər uzanan vilayətlərinə qonşu olduğunu da göstərmişdir.[2]

Oğuzların siyasi inkişafında İslamın rolunu xüsusi qeyd edən V.V.Bartold oğuz türkləri arasında islamın daha sürətli yayılmasını bilavasitə Səlcuqla bağlayırdı.[3] V.V.Bartold bəzi məsələlərdə olduğu kimi, türklərin İslamı gec qəbul etməsinin səbəbini araşdırmırdı. Halbuki türk tayfalarının "Göy Tanrı" dininə sitayiş etdiyini, bu dinin ehkamlarının isə monoteizmə çox yaxın olduğunu bu alimin bildiyi şübhəsizdir.

Azərbaycan tarixində Səlcuqlara qədər də türklərin oynadıqları rolu sübut etməyə ehtiyac yoxdur. "Kitabi-Dədə Qorqud" dastanlarını araşdırmış V.V.Bartold "türk amilinin" səlcuqlardan xeyli öncə Qafqazda böyük qüvvə olduğunu bilirdi. V.V.Bartold oğuz tayfalarının Səlcuq sülaləsinin bütün fəthlərində iştirak etdiyini və hətta imperiyanın parçalanmasından sonra meydana çıxmış atabəy sülalələrində də yer tutduğunu xüsusi qeyd edirdi.[4]

---

[1] Бартольд В.В. История культурной жизни Туркестана // Сочинения. Т. II (I), с.169-433; Yenə onun. История Туркестана // Сочинения. Т.II (I), с.109-168; Yenə onun. Очерк истории туркменского народа // Сочинения, т.II (I), с.547-626

[2] Бартольд В.В. Очерк истории туркменского народа // Сочинения, т.II (I), s.559

[3] Yenə orada, s.566

[4] Yenə orada, s.580

Böyük Səlcuq imperiyası parçalandıqdan sonra yaranmış sultanlıqlardan ən qüdrətlisi İraq Səlcuq sultanlığı idi. Bu sultanlıq 1161-ci ildən etibarən Azərbaycan atabəyləri (Eldənizlər) tərəfindən idarə olunmuş, 1191-ci ildə bu sülalənin görkəmli nümayəndəsi Qızıl Arslan İraq sultanlığında həm də rəsmi hakimiyyəti ələ keçirmişdi. Eldənizlərin hakimiyyəti dövrü Azərbaycanın həm iqtisadi, həm də mədəni inkişafı baxımından yüksəliş dövrü sayılır. Bu sülalə Azərbaycanın klassik orta əsr cəmiyyətinin təşəkkülü dövründə hakimiyyətdə olmuşdur. Bir çox siyasi, ictimai və iqtisadi təsisatların yaranması və inkişafı məhz Eldənizlərlə bağlı idi.

Eldənizlər dövlətinin beynəlxalq əlaqələri də çox geniş olmuşdur. Bu sülalə uzun müddət ərzində Yaxın Şərqin ən qüdrətli dövlətləri olan Zəngilərlə, Əyyubilərlə, Abbasi xəlifələri ilə rəqabət aparmışdır. Bu münasibətlər V.V.Bartolda da yaxşı məlum olan XII əsrin müsəlman mənbələrində çox ətraflı təsvir olunmuşdur. V.V.Bartoldun tədqiqat əsərlərində bu siyasətin yalnız bir hissəsi (Eldənizlərin Azərbaycan Şirvanşahlar dövləti ilə bağlı olaraq həyata keçirdiyi hərbi-siyasi və diplomatik tədbirlər) öz əksini tapmışdır. V.V.Bartoldun əsərlərində Azərbaycan Şirvanşahlar dövləti ilə münasibətlərə ziddiyyətli yanaşmalar mövcuddur. Belə ki, alim bir tərəfdən qeyd edir ki, Eldəniz-Şirvanşah münasibətləri düşmənçilik səciyyəsi daşımışdır. Eyni zamanda tarixçi belə bir faktı da qeyd edirdi ki, "şirvanlılar öz sikkələrində özlərini səlcuq sultanları Arslan-şahın (1161-1177) və Toğrulun (1177-1194) vassalları adlandırırdılar". V.V.Bartold daha sonra qeyd edir ki, "atabəylər Qızıl Arslan Osmanın (1186-1192) Şamaxını və Şirvanşah Axsitanın Bakını zinətləndirmələri" haqqında bəzi yazılarda olan sözlər Qızıl Arslan Şamaxını ələ keçirdikdən sonra Axsitanın öz iqamətgahını müvəqqəti olaraq Bakıya köçürməsi kimi anlaşılmalıdır. Axsitan Şamaxıya yalnız Qızıl Arslanın ölümündən sonra qayıtmışdır".[1]

Məlumdur ki, qədim dövlətçilik ənənələrini qoruyan Şirvanşahlar dövləti Səlcuq hakimiyyəti dövründə də nisbi siyasi müstəqilliyini qoruyub saxlamağa cəhd göstərmişdir. Səlcuq sultanı Məlik-şahın hakimiyyətinin sonuna doğru şirvanşahlar yaranmış əlverişli vəziyyətdən istifadə edərək müstəqil xarici siyasət yeritmişlər. Lakin mənbələr birmənalı şəkildə göstərir ki, 1067-ci ilin sonunda Səlcuq sultanı Alp Arslan Şirvan ərazisinə qoşun yeritmiş, şirvanşah Fəriburz sultanın "himayəsini" qəbul etmişdir.[2] Sonrakı dövrdə şirvanşahlar müstəqil xarici siyasətləri bərpa etmiş, 1160-cı ilin sonunda şirvanşah III Mənuçöhrün vəfat etməsindən istifadə edən arvadı Tamar qıpçaqlara

[1] Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri, s.54-55
[2] Azərbaycan tarixi. 7 cilddə. II cild, s.301

arxalanaraq Şirvanı "gürcü" mülklərinə birləşdirməyə cəhd göstərmişdir. Lakin məhz Şəmsəddin Eldənizin yardımı ilə Şirvan taxtına III Mənuçöhrün böyük oğlu I Axsitan (1160-1196) çıxmış, Tamar isə Şirvanşahlar sarayını tərk etmək məcburiyyətində qalmışdır. Şirvanşah I Axsitan isə hakimiyyətinin sonunadək Eldənizləri "himayəçi" olaraq qəbul etmiş və onlarla dostluq münasibətləri qurmuşdur.[1]

XIII əsrin əvvəllərində Yaxın və Orta Şərqin, Ön Asiyanın, habelə Azərbaycanın hərbi-siyasi tarixində çox böyük nəticələri olan hadisələr baş verdi. Tarix səhnəsinə Çingiz xanın başçılığı ilə monqolların gəlməsi, Monqol imperiyasının yaranması böyük bir coğrafi məkanda ciddi dəyişikliklərin əsasını qoydu. Qısa bir müddət ərzində bir çox ölkələr monqol hakimiyyəti altına düşdü. Daimi xarici təhlükənin olması, Azərbaycanın hərbi-siyasi baxımdan pərakəndəliyi, ara müharibələri, şəhərlərdə ictimai ziddiyyətlərin kəskinləşməsi, "gümüş böhranı" və digər amillər monqolların işğallarını asanlaşdırır, monqol ağalığının uzun zaman davam etməsini şərtləndirirdi.

Monqol yürüşləri və tarixdə "monqol amili" çoxcəhətli problemlərdir. Hətta V.V.Bartold kimi peşəkar şərqşünas da həmin problemlərin kompleks təhlilini bir məqalədə və yaxud məqalələr toplusunda təqdim etmək iqtidarında deyildi. Monqolların etnik tarixi, Çingiz xanın dövlətinin yaranması, ayrı-ayrı uluslar şəklində inkişafı, monqolların monoteist dinlərə münasibəti, dövrün təsərrüfat həyatı, Şərq ölkələrinin tarixi inkişafında monqol işğallarının, hakimiyyətinin rolu və yeri, bu ölkələrin monqolların dövlətçilik ənənələrinə təsiri və onların mədəni inkişafda iştirakı, Avropa ölkələri ilə əlaqələrdə monqolların rolu, monqolların ümumi tarixi V.V.Bartoldun 10-dan artıq tədqiqat əsərində təhlil edilmişdir. [2]

V.V.Bartold monqol yürüşlərinin erkən dövrü ilə bağlı olaraq yazırdı ki, "monqollar öz fəthlərini mədəni insanların yardımı ilə etmişlər"[3]. Yəni, Çingiz xanın (1206-1227) yürüşləri qəflətən baş verməmişdi, plansız deyildi, öncədən müəyyən edilmiş plan, xüsusi şəxslərin casusluq fəaliyyəti əsasında baş vermişdir. Buna görə də, "monqollar bütün mədəni ölkələri özlərinə tabe etdilər".

---

[1] Mahmudov Y.M. Azərbaycan tarixi. İntibah dövrü. Bakı: Altay dünyası, 1996, s.34
[2] Бартольд В.В. История культурной жизни Туркестана // Сочинения. Т. II (I), с.169-433; Yenə onun. История Туркестана // Сочинения. Т.II (I), с.109-168; Yenə onun. К вопросу о погребальных обрядах турков и монголов // Сочинения. Т.9. Москва: Наука, 1971; Yenə onun. Отчет о поездке в Среднюю Азию с научной целью. 1893-1894 гг. // Сочинения. Т.4. Москва: Наука, 1967; Yenə onun. Очерк истории Семиречья // Сочинения. Т.II (I); Yenə onun. Очерк истории туркменского народа // Сочинения, т.II (I), с.547-626 və d.
[3] Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri, s.64

Monqolların işğal etdikləri ölkələrdə mədəni quruculuq fəaliyyəti ilə məşğul olduqlarını təsdiqləyən V.V.Bartold bunu Azərbaycan şəhərlərinin nümunəsində də nəzərə çatdırırdı. V.V.Bartold məlum mühazirələrində Marağa şəhərində Azərbaycanın ensiklopedist alimi Nəsirəddin Tusinin rəhbərliyi altında rəsədxananın tikilməsi, Sultan Məhəmməd Ulcaytu xan tərəfindən Sultaniyyə şəhərinin əsasının qoyulması, Təbriz yaxınlığındakı "Qazaniyyə" adlanan yerdə Qazan xanın məqbərəsinin inşası, Təbrizdə Hənəfilər və Şafiilər üçün iki məscidin tikintisi və s. quruculuq işləri haqqında ətraflı məlumatlar təqdim etmişdir.[1] Lakin belə bir faktı da nəzərə almaq vacibdir ki, bütün quruculuq tədbirlərinə baxmayaraq, monqollar Ön Asiyada yeni qüvvə olmuşlar. Yerli ictimai-iqtisadi, siyası, mədəni qüvvələrin fəallığı artdıqca monqol hakimiyyətinin zəifləməsi də təbii idi. Artıq böyük bir coğrafi məkan milli dövlətlərin yaranması ərəfəsində idi. Tezliklə, bu proses Azərbaycanda da özünü göstərdi. Qaraqoyunlu (1410-1468), Ağqoyunlu (1468-1501) və Səfəvi (1501-1736) dövlətlərinin təşəkkülü və inkişafı Azərbaycan xalqının siyasi, ictimai-iqtisadi, mədəni və mənəvi potensialının parlaq göstəriciləri idi.

Dissertasiyanın **III fəsli "V.V.Bartoldun XV-XVII əsrlər Azərbaycan tarixi üzrə araşdırmaları"** adlanır. Fəsil Azərbaycanın bu dövrünün hərbi-siyasi tarixi, Səfəvi dövlətinin xarici siyasət məsələləri, ölkənin iqtisadi və mədəni tarix problemlərinin V.V.Bartoldun araşdırmalarında əksi məsələlərini öyrənir və 3 paraqrafdan ibarətdir.

Azərbaycan xalqının monqol hakimiyyətindən sonrakı tarixi həm müsəlman Şərqində baş vermiş ümumi hərbi-siyasi hadisələrlə, həm də yeni tarixi mərhələdə ölkənin təkamülünün qanunauyğunluqları ilə sıx bağlı olmuşdur. Bu dövr ölkə ərazisində iri dövlətlərin (Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin) yaranması, yüksəlişi və tənəzzülü ilə əlamətdardır. XV-XVII əsrlər Şərq ölkələrinin öz aralarında və Qərbi Avropa dövlətləri ilə diplomatik-siyasi, ticarət əlaqələrinin görünməmiş vüsət alması, müstəmləkə sisteminin təşəkkül tapması ilə səciyyəvi olmuşdur. Azərbaycan xalqının dövlətçilik tarixinin keyfiyyətcə yeni mərhələsini təşkil edən Ağqoyunlu və Səfəvi dövlətlərinin meydana çıxması ölkənin tarixi ərazilərinin yenidən vahid türk hakimiyyəti altında birləşməsini şərtləndirmişdi. Digər tərəfdən, bu dövlətlərin yaranması Azərbaycanın xarici, siyasi və iqtisadi əlaqələrinin görünməmiş vüsət almasını təmin etmişdi. Xüsusilə Səfəvi (Qızılbaş) dövlətinın yaranması mükəmməl idarəçiliyi hərbi quruculuğu, sistemli xarici siyasəti və diplomatiyası ilə Azərbaycanın müsəlman Şərqinin aparıcı

[1] Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri, s.82

dövlətinə çevrilməsinə şərait yaratmışdı.

Lakin V.V.Bartold monqol hakimiyyətinin tədricən zəiflədiyi bir dövrdə yerli dövlətlərin yaranıb möhkəmlənməsini məhz həmin monqol imperiyasının güclü siyasi təşkilatı ilə izah edirdi.[1] Yəni, V.V.Bartold "monqol amilinə" müstəsna əhəmiyyət verir və iri türk-müsəlman imperiyalarının yaranmasını da monqollarla bağlayırdı. Akademik Səfəvi dövlətinə nisbətən Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinə az diqqət ayırmışdır. Səfəvi dövlətinin tarixini daha ətraflı surətdə araşdırmış V.V.Bartoldun bu dövlətin yaranma səbəbləri ilə bağlı olan fikirlərini birmənalı qəbul etmək qeyri-mümkündür: "Türkiyə kimi qüdrətli sünni dövlətinin qonşuluğunda İranın (Səfəvi dövlətinin – R.Ş.) bir şiə dövləti kimi təşəkkülü onunla izah olunur ki, həmin dövrdə Türkiyədə nisbətən sülhsevər sultan II Bəyazid hakim idi. Doğrudur, Türkiyə daxilində şiələrə qarşı təqiblər baş verirdi, lakin bu hadisələr artıq İsmayıla qarşı həmlə etmiş I Səlimin dövrünə aiddir".[2]

Səfəvi dövlətinin tarixinə böyük yer ayırmış V.V.Bartold bu dövlətin yaradıcıları (Səfəvi sülaləsinin nümayəndələri) haqqında yazılı mənbələrin məlumatlarından çxeyli yararlanmışdır. Akademik yazırdı ki, "Mazandaran şeyxlərinin yüksəlməsi Xəzəryanı bölgələrdə ruhani müsəlman cəmiyyətlərinin (ordenlərinin) nüfuzunun qorunub saxlandığını təsdiq edirdi və "həmin hakimlər orada yenidən bərqərar olduqdan sonra onlar dərvişlərin adından öz fəaliyyətlərini davam etdirirdilər".[3] Səfəvi dövlətinin "İran dövləti" kimi qeyd etmiş V.V.Bartold "Səfəvi şahlarının, sülaləsinin mənşəcə türk olduğunu" etiraf edirdi.[4] Maraqlıdır ki, Səfəvi dövlətinin yaranmasında türklərin üstünlüyünü, aparıcı olduğunu isti qəbul edən tarixçi bu cəhəti unutmamağı tövsiyə edirdi. "Çünki çox hallarda Türkiyə və İran (Səfəvi – R.Ş.) dövlətləri arasındakı mübarizəni "milli mübarizə" kimi qələmə verirlər. Bu mübarizə isə heç bir milli əlamət daşımırdı".[5] Görünür, V.V.Bartold Səfəvi dövlətini mənşəcə türk, coğrafi məkanına və məzmununa görə isə "İran" (fars deyil – R.Ş.) dövləti hesab edirdi.

V.V.Bartoldun əsərlərində Azərbaycan Səfəvi dövlətinin xarici siyasət məsələlərinə, onun Osmanlı imperiyası ilə münasibətlərinə xeyli yer ayrılmışdır. Akademik şah I İsmayılın və şah I Abbasın hakimiyyəti illərinə daha çox diqqət yetirmişdir. V.V.Bartold I İsmayılın hakimiyyətinin yüksəliş

---

[1] Бартольд В.В. Краткий обзор истории Азербайджана // Сочинения. Т.II (I), s.750-751
[2] Yenə orada, s.751
[3] Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri, s.116
[4] Yenə orada, s.117
[5] Yenə orada, s.117

dövrünün 1501-1510-cu illəri əhatə etdiyini qeyd edirdi.[1] Bu müddət ərzində Səfəvi şahı I İsmayıl həqiqətən bir neçə iri hərbi və diplomatik qələbə əldə etmişdi. Belə ki, Səfəvi hökmdarı Ağqoyunlulara ağır zərbə endirmiş, Zülqədəroğullarına qarşı Mərəşə və Əlbistana yürüşlər etmiş, 1510-cu ildə özünün şərqdə ən güclü rəqibi olan Şeybani xanını Mərv döyüşündə məğlubiyyətə uğratmış və Qərbi Avropa dövlətləri ilə genişmiqyaslı diplomatik əlaqələr yaratmışdı. Bu qələbələr sırasında Səfəvilərin Ağqoyunlulara qarşı apardığı mübarizə xüsusi yer tutur.

Ümumiyyətlə, 1555-ci ildə bağlanmış Osmanlı-Səfəvi Amasya sülh müqaviləsinə qədər olan hadisələr haqqında V.V.Bartold ətraflı təhlil aparmamışdır. Görünür, bu halın əsas səbəbi tarixçinin Avropa mənbələrinə daha az diqqət yetirməsi ilə bağlıdır. Belə ki, Səfəvilərin Osmanlılara qarşı mübarizəsində Qərbi Avropa dövlətləri ilə yaxınlaşması, geniş diplomatik əlaqələr yaratması, bəzi Qərb dövlətlərinə isə çox böyük güzəştlər verməsi hələ şah I İsmayılın dövründən başlanmışdır. Bu məsələlər Avropa mənbələrində daha ətraflı şəkildə təsvir olunmuşdur. Avropa qaynaqları içərisində italyan tarixçisi Q.Berşenin "Venesiya Respublikası və İran" adlı toplusunda cəmlənmiş arxiv sənədləri, digər bir italyan tarixçisi B.S.Amorettinin redaksiyası ilə nəşr olunmuş "Şah I İsmayıl Marin Sanudonun gündəliklərində" adlı sənədlər toplusu böyük elmi dəyər kəsb edir. Bu toplular V.V.Bartoldun diqqətindən kənarda qalmış və Səfəvi tarixi nöqteyi-nəzərindən tarix elminə ilk dəfə olaraq görkəmli Azərbaycan tarixçisi Y.M.Mahmudov tərəfindən cəlb edilmişdir.[2]

V.V.Bartold Səfəvilər sülaləsinin hakimiyyəti dövründə Azərbaycan xalqının, habelə imperiyanın tərkibinə daxil olmuş "İran" xalqlarının, Əcəm İraqının, Cənubi Qafqazın digər bölgələrinin iqtisadi inkişaf məsələlərini də müəyyən dərəcədə araşdırmışdır. Bu dövrdə Azərbaycanın iqtisadi inkişafını birmənalı qiymətləndirmək qeyri-mümkündür. Bir tərəfdən, Azərbaycanın Avropa dövlətləri ilə sıx ticarət əlaqələri yaratması üçün geniş imkanlar açılmışdı. Lakin digər tərəfdən, Osmanlılarla düşmənçilik bu əlaqələrin inkişafına xeyli əngəllər yaratmışdı. Belə ki, Osmanlı sultanlarının geniş fəthləri nəticəsində Şərqi Aralıq dənizi sahillərinin böyük bir imperiyanın tərkibinə qatılması Səfəvi dövlətini Levant bazarından bəhrələnmək imkanından məhrum etmişdi. Azərbaycanın beynəlxalq ticarətdəki mövqeyinə ciddi zərbə endirmiş digər bir amil isə İran körfəzində portuqaliyalıların üstünlüyü, bu ticarətin mühüm məntəqəsi olan Hörmüzün onların əlində

---

[1] Бартольд В.В. Краткий обзор истории Азербайджана // Сочинения. Т.II (I), s.751

[2] Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı: Təhsil, 2006

olması idi. Bu amillə bağlı olaraq V.V.Bartoldun əsərlərində çox maraqlı qeydlərə təsadüf etmək olar.[1] V.V.Bartold Hörmüzün ticarət əhəmiyyətini itirməsi faktına toxunarkən hesab edirdi ki, şah I Abbasın vəfatından sonra Hörmüz ticarət mərkəzi kimi əhəmiyyətini itirdi və başlıca ticarət limanı Bəndər-Abbas oldu.[2] Lakin son illərin araşdırmaları aydın surətdə göstərir ki, Hörmüzün Bəndər-Abbasla əvəzlənməsi qəflətən baş vermiş hadisə deyildi. Həmin əvəzlənmə məqsədyönlü bir tədbirin nəticəsi idi. Şah I Abbas Hörmüzün yeni müstəmləkəçinin əlinə keçməməsi üçün İran körfəzində ən əhəmiyyətli limanı qitədəki məntəqə ilə əvəz etmişdi.

V.V.Bartoldun bu dövrün Azərbaycan mədəniyyəti ilə bağlı xeyli fərqli mülahizələri vardır. Bu fikirlər belə bir nəticəyə gətirir ki, V.V.Bartold "XVI-XVII əsrlərdə Azərbaycanda mədəni tənəzzülün baş verdiyi" qənaətində idi. Əvvəlki dövrlərdə "Şərqin Avropadan qat-qat üstün olduğunu" qeyd etmiş akademik XV əsrin italyan səyyahı İosafat Barbaro haqqında yazmışdır ki, o, "ilk avropalı idi ki, Şərqdən Qərbə qayıdarkən özünü daha mədəni mühitdə hiss etmişdir".[3] V.V.Bartold bu fikrində qəti əmindir ki, Qərbi Avropadan fərqli olaraq Şərqdə "mədəni tənəzzül siyasi süqutun önündə gedir" və Səfəvi dövlətinin yaranması faktının özü siyasi inkişaf mərhələsindən xəbər verir.[4]

Bu cür mülahizələri birmənalı qəbul etmək mümkün deyildir. Çünki onlara əks olan mülahizələr irəli sürmək üçün də xeyli araşdırmalar mövcuddur. Bu dövrün Azərbaycan ədəbiyyatı Səfəvi dövlətinin banisi, şair-hökmdar Şah İsmayıl Xətainin, Məhəmməd Füzulinin, Qövsi Təbrizinin, Rüknəddin Məsihinin, Saib Təbrizinin poetik yaradıcılığı, Qurbani, Aşıq Abbas Tufarqanlı kimi xalq nəğməkarlarının fəaliyyəti, "Koroğlu", "Əsli və Kərəm", "Aşıq Qərib", "Abbas və Gülgəz" kimi dastanlarla məşhurdur. Təsviri incəsənət bu dövrdə çiçəklənmə mərhələsini keçirmişdir. Kəmaləddin Beyzadın, Sultan Məhəmmədin, Sadiqbəy Əfşarın, Mir Müsəvvər Təbrizinin yaradıcılığı məhz bu məktəblə bağlı olmuş və XVI-XVII əsrlərə təsadüf etmişdir.[5] Həmin dövrdə Azərbaycana, o cümlədən onun tarixinə həsr olunmuş əsərlər meydana çıxdı. Azərbaycan tarixçisi Həsənbəy Rumlu 12 cildlik "Əhsən ət-təvarix" əsərini yazdı. V.V.Bartoldun bu dövrlə bağlı olaraq daha çox istinadlar etdiyi İsgəndərbəy Münşi isə Azərbaycanın, "İranın" və digər ölkələrin tarixinə dair qiymətli salnamə yaratdı. Oruc bəy Bayat Səfəvilər dövlətinə dair tarixi-coğrafi

---

[1] Бартольд В.В. Историко-географический обзор Ирана // Сочинения. T.VII, s.147-148
[2] Yenə orada, s.149
[3] Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri, s.130-131
[4] Yenə orada, s.120
[5] Azərbaycan tarixi. Akademik İ.H.Əliyevin red. ilə. Bakı: Elm, 1993, s.170

səciyyəli əsər yaratdı. Səfəvi şahlarının əksəriyyəti ədəbiyyat və incəsənəti himayəçisi olmuşdur. Onlar özləri də mədəni yaradıcılıqla məşğul olmuşlar. Bu dövrdə Azərbaycan mədəniyyətinin inkişafının ən mühüm göstəricisi isə Azərbaycan türkcəsinin ədəbi dil kimi geniş yayılması, qonşu ölkələrdə yaşayan xalqlar üçün vacib ünsiyyət vasitəsinə çevrilməsi olmuşdur. Adlarını yuxarıda çəkdiyimiz şairlərin, ədiblərin hamısı əsasən Azərbaycan türkcəsində yazıb yaratmışlar.

Təbiidir ki, XVI-XVII əsrlərdə Azərbaycan mədəniyyətinin tənəzzül keçirmədiyini, inkişafının davam etdiyini sübut etmək üçün sadaladığımız faktlar V.V.Bartoldun tədqiqat əsərlərinin müsbət cəhətlərini kölgədə qoymur. Akademikin Səfəvi şahlarının iqtisadi siyasəti, xüsusilə quruculuq fəaliyyəti ilə bağlı olan mülahizələri, onun istifadə etdiyi tarixi faktlar, mənbələrdən etdiyi tərcümələr hələ də öz aktuallığını və elmi əhəmiyyətini saxlayır. V.V.Bartoldun bu dövrlə bağlı olan bütün əsərləri, mülahizələri Səfəvi hakimiyyətinin həm siyasi, həm iqtisadi inkişaf baxımından Azərbaycan xalqının tarixində şanlı bir mərhələ olduğunu təsdiq edir.

Dissertasiyanın **"Nəticə"** hissəsində araşdırmaya yekun vurulmuş, V.V.Bartoldun Azərbaycan tarixi ilə bağlı araşdırmalarının ən mühüm tərəfləri ilə bağlı ümumiləşdirmələr aparılmış və elmi nəticələrə gəlinmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**


1. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri İ.P.Petruşevskinin tədqiqatlarında Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2002, № 1, s178-181
2. V.V.Bartold slavyanların 944-945-ci illərdə yürüşü haqqında. Aspirant və gənc tədqiqatçıların IX Respublika Elmi konfransının tezisləri. Bakı, 2003, s.20
3. Sultan II Səlimin (1566-1574) Avropa siyasətinə dair. Ümummilli əbədi liderimiz Heydər Əliyevin xatirəsinə və 28 May Respublika gününə həsr olunmuş "Dünyada yeni inkişaf meylləri istiqamətində Türk dünyası: Azərbaycan və Türkiyə" beynəlxalq elmi-praktik simpoziumun materialları. Bakı, 2004, s.159
4. Erkən orta əsrlərdə müsəlman Şərqinin Şimalla əlaqələri məsələləri V.V.Bartoldun tədqiqatlarında. Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2005, № 3, 169-173
5. V.V.Bartoldun İslam mədəniyyətinə elmi baxışı. Bakı Dövlət Universitetinin və Tarix fakültəsinin 90 illiyinə həsr olunmuş konfransın materialları. Bakı, 2009, s.456-460
6. V.V.Bartold müsəlman Şərqində monqol amilinin yeri haqqında. AMEA Tarix İnstitutunun Xəbərləri, 33-cü buraxılış, 2009, s.92-97
7. Azərbaycanin etnik tarixi məsələlərinə V.V.Bartoldun baxişı. Tarix və onun problemləri. Bakı, 2010 s. 251-254
8. Вопросы внешней политики Сефевидского государства в исследованиях русского востоковеда В.В. Бартольда. Сборник научных статей II международной научно-практической конференции. Кизляр. 2010 s.143-147
9. Səlcuq türklərinin tarixi akademik V.V.Bartoldun tədqiqatlarinda. Türk dünyası dünəni və bu günü (Beynəlxalq elmi konfrans). Bakı, 2011 s. 404-407
10. Səfəvi dövlətinin xarici siyasət məsələləri V.V.Bartoldun tədqiqatlarinda. Tarix və müasirlik, 1/2012, s.67-73
11. Некоторые вопросы политического и экономического развития Азербайджана в период халифата в исследованиях академика В.В.Бартольда. Гилея. Научный вестник. Выпуск 69 (№ 2), Киев, 2013, с.206-213

**Р.Ш.Шахбазова**

# Вопросы средневековой истории Азербайджана в исследованиях В.В.Бартольда

## Резюме

Диссертация посвящена вопросам изучения академиком В.В.Бартольдом средневековой истории Азербайджана. Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во **введении** обоснованы актуальность и хронологические рамки исследования, даны краткий историографический обзор и источниковая база проблемы. Также определены цель и задачи исследования, указаны ее научная новизна, теоретическое и практическое значение.

**Глава первая** под названием «Раннесредневековая история Азербайджана в трудах В.В.Бартольда» состоит их четырех параграфов и исследует вопросы этнополитической истории Азербайджана в III-VII вв., политическая и экономическая ситуация в Азербайджане в период правления Халифата, история азербайджанских государств IX-XI вв., а также проблемы мусульманской культуры.

**Глава вторая** называется «Вопросы истории Азербайджана XI-XIV вв. в трудах В.В.Бартольда». Глава состоит из четырех параграфов и исследует вопросы изучения В.В.Бартольдом истории Азербайджана XI-XIV веков. Здесь рассмотрены проблемы истории Азербайджана периода сельджукского и монгольского владычеств.

**Глава третья** под названием «Исследования В.В.Бартольда по истории Азербайджана XV-XVII вв.» состоит из трех параграфов. В этой главе рассматриваются военно-политическая история Азербайджана XV-XVII вв., в том числе внешняя политика Сефевидского государства, экономическое и культурное развитие страны в период правления Сефевидов.

В **заключении** диссертации подведен итог проведенного исследования, сформулированы общие выводы, вытекающие из данной работы.

**R. Sh. Shahbazova**

## Medieval History Issues of Azerbaijan in V.V. Bartholdi's Investigations


### Summary

This thesis is devoted to issues of the Azerbaijani medieval history studies by the academician V.V.Barthold. It consists of a preface, three chapters, a conclusion and a reference list.

In the **preface**, an actuality and chronological frames of the investigation basis, a brief historiographical review and source base of the problem are given. The investigation purpose and tasks' determination, scientific novelty, theoretical and practical importance of the investigation have been pointed out as well.

**The first chapter**, under the title of "The Early Medieval History of Azerbaijan in V.V.Barthold's Works", includes four chapters and investigates ethno political problems of the Azerbaijani history in III-VII centuries, political and economical situations in Azerbaijan in the period of the Caliphate's governing, history of the Azerbaijani states in IX-XI centuries, problems of the Moslem culture as well.

**The second chapter** is called "The Azerbaijani Historical Issues of XI-XIV centuries in V.V.Barthold's Works". The chapter consists of four paragraphs and investigates issues, studied by V.V.Barthold, of the Azerbaijani history in XI-XIV centuries. The problems of the Azerbaijani history in the period of the Seljuk and Mongolian empires have been scrutinized in this chapter.

**The third chapter**, under the title of "V.V.Barthold's Investigations on the Azerbaijani History of XV-XVII Centuries", consists of three sections. In this chapter the Azerbaijani military-political history of XV-XVII centuries has been considered, including a foreign policy of the Safavids' State, economic and cultural development of the country in the period of the Safavids' governing.

**In the conclusion** of the thesis the investigation has been summed up and common conclusions, running out of this work, have been formulated.

Əla növ kağız, formatı 60x84 - $^{1}/_{16}$
Tirajı 100 nüsxə

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**РЕНА ШАМИЛЬ гызы ШАХБАЗОВА**

# ВОПРОСЫ СРЕДНЕВЕКОВОЙ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В ИССЛЕДОВАНИЯХ В.В.БАРТОЛЬДА

**Специальность: 5502.01 – Всеобщая история**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ – 2015**